# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİMİZ YENİ GÖRKƏM ALIR




*Müasir memarlıq və şəhərsalma planları ilə həyata keçirilən layihələr üçün ölkəmiz böyük iqtisadi potensiala malikdir*

**Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən il 44 günlük Vətən müharibəsində Silahlı Qüvvələrimiz tərəfindən parlaq qələbə əldə edildi. Dövlət başçısının siyasi iradəsi, qətiyyətli mövqeyi nəticəsində bu gün doğma Qarabağa yol alırıq. İndi dövlətimizin qarşısında duran əsas vəzifə işğaldan azad olunmuş torpaqlarımızın bərpası, quruculuq işlərinin həyata keçirilməsidir.**

Müharibədən keçən dövr ərzində Qarabağda böyük quruculuq işlərinə start verilmiş, bölgədə bir çox layihələrin icrasına, eləcə də yenidənqurma, restavrasiya işləri üçün əməli fəaliyyətə başlanılmışdır.

Noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısındakı çıxışında Prezident İlham Əliyev işğal olunmuş ərazilərdə şəhər və kəndlərin, o cümlədən mədəniyyət abidələrinin yerləyeksan edildiyini, həmin ərazilərdə 67 məscidimizdən 65-nin tamamilə dağıdıldığını, digər iki məscidə isə ciddi zərər dəydiyini bildirmişdir. Həmçinin, ərazilərin azad olunmasından dərhal sonra genişmiqyaslı yenidənqurma işlərinə başlandığını, Azərbaycanın özünün maliyyə resursları hesabına yeni şəhər və kəndlərin salındığını və bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard ABŞ dolları, 2022-ci ildə də bu işlərə ən azı eyni həcmdə vəsait ayrıldığını diqqətə çatdırmışdır.

Bu gün ölkə başçısının işğaldan azad olunan ərazilərə tez-tez səfər etməsi, ondan xəbər verir ki, dövlət siyasətinin prioritet istiqamətlərindən birini məhz ərazilərimizin yenidən qurulması və insanların yaşayışının təmin edilməsi tutur. Görülən işlər şəxsən Prezident cənab İlham Əliyevin nəzarəti altında həyata keçirilir.

Ötən il dekabrın 1-də Prezident İlham Əliyev Azərbaycan xalqına ünvanladığı tarixi müraciətdə demişdir: "Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

Prezident İlham Əliyev bərpa olunan yaşayış sahələrində müasir iqtisadi və texnoloji innovasiyaların tətbiqini xüsusi diqqət mərkəzində saxlayır. Bu baxımdan Zəngilan rayonunun Birinci, İkinci və Üçüncü Ağalı kəndlərində ilk olaraq "Ağıllı kənd" layihəsinin həyata keçirilməsi mühüm önəm daşıyır. İnşa edilən "Ağıllı kənd"lərdə sakinlərin enerjiyə tələbatı yalnız alternativ enerji mənbələri hesabına ödəniləcək. Eyni zamanda, texnoloji innovasiyanın tətbiqi istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji kimi sahələrin inkişafını sürətləndirəcək.

"Ağıllı kənd" konsepsiyası informasiya-kommunikasiya texnologiyaları ilə kənd təsərrüfatı istehsalında məhsuldarlığın artırılması, miqrasiya və işsizliyin qarşısının alınması, rəqəmsallaşmanın digər kəndlərə də yayılmasını təmin edir. Həmçinin, dünyanın ən son kənd təsərrüfatı texnologiyalarından istifadə kimi bir çox önəmli və gələcək üçün perspektiv vəd edən məsələni reallaşdırır.

Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsindən sonra Zəngilanda və Laçının Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanları bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Laçın Beynəlxalq Hava Limanın inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək.

Zəfər yolunun tikintisinin həyata keçirilməsi də Azərbaycan xalqının qazandığı parlaq Qələbənin nəticəsidir. Qısa vaxtda icra olunan bu layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini dünyaya göstərdi. Şanlı Ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Zəfər yolu adlandırılan avtomobil yolunun inşası dövlətimizin başçısının daimi nəzarəti altında icra olunub. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Layihə həm də ona görə müstəsna əhəmiyyət daşıyır ki, bu, ilk növbədə, öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksək səviyyəli həyat və yaşayış standartının yaradılmasına xidmət edir.

İşğaldan azad edilmiş ərazilərimizdə infrastruktur layihələri davamlı şəkildə icra olunur. Bu gün ata-baba yurdumuzda azan səsi eşidilir, şanlı üçrəngli bayrağımız dalğalanır. Bütün infrastruktur layihələrinin uğurla həyata keçirilməsi nəticəsində Qarabağın əvvəlki şan-şöhrəti yenidən qaytarılacaq. Daha gözəl, müasir memarlıq və şəhərsalma planları ilə şəhərlərimiz abadlaşacaq. Azərbaycan qısa müddətdə işğaldan azad olunmuş əraziləri dünyanın ən abad və gözəl məkanlarından birinə çevirəcək. Bunun üçün lazım olan güclü siyasi lider, böyük iqtisadi potensial mövcuddur.

**M.MİRZƏ,**
**"Respublika"**

turizm potensialının artırılmasına səbəb olacaq. Laçın Beynəlxalq Hava Limanın inşası həm də işğaldan
cək. Bunun üçün lazım olan güclü siyasi lider, böyük iqtisadi potensial mövcuddur.
sən Prezident cənab İlham Əliyevin nəzarəti altında həyata keçirilir.
Ötən il dekabrın 1-də Prezident